MİRAS
Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyi

mədəni irs ustad məktəbi

# QEYRİ-MADDİ MƏDƏNİ İRS

## TƏDRİS VƏSAİTİ

Hazırlayan:
Dr. Fariz Xəlilli

BAKI – 2026

Kitabın məzmunu “Miras” Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyinin cavabdehliyindədir, bu baxımdan kitabın məzmunu Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin mövqeyini əks etdirmir.

Kitab Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin Qeyri Hökumət Təşkilatları üçün elan etdiyi 2025-ci il Qrant müsabiqəsi çərçivəsində nəşr olunmuşdur.

Xəlilli, Fariz. (Hazırlayan). (2026). Qeyri-maddi mədəni irs: Tədris vəsaiti.
Bakı: *"AFPoliqrAF"*, 2026.– 300 səh.

10 mart – 24 aprel 2026-cı il tarixlərində “Miras” Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyinin Mədəni İrs Beynəlxalq Ustad Məktəbi qeyri-maddi mədəni irs ustad dərslərinə başlamışdır. Dərslər YUNESKO-nun Qeyri-maddi mədəni irs ilkin siyahısında olan Azərbaycanın 24 qeyri-maddi mədəni irsi mövzularında olub, Azərbaycan irs mütəxəssisləri tərəfindən aparılmışdır. Mühazirələr əsasında tədris vəsaiti nəşrə hazırlanmışdır.

Elmi redaktor: Prof.Dr. Şikar Qasımov
Rəyçi: Prof.Dr. Kübra Əliyeva

Koordinator: Məleykə Hüseynova
Fotolar: Fariz Xəlilli, Məleykə Hüseynova, Nərmin İmanova, Süleyman Süleymanov

ISBN: 978-9952-598-51-3

© “Miras” Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyi, 2026

ÇAY MƏDƏNİYYƏTİ: TARİXİ, SOSİAL ROLU VƏ MƏRASİM ƏNƏNƏLƏRİ
Ceyhun İsmayılov ..... 201

İFTARIN SOSİAL VƏ DİNİ ƏHƏMİYYƏTİ
Əhməd Niyazov ..... 211

SEYİD YƏHYA BAKUVİNİN "ŞƏFAÜL-ƏSRAR" ƏSƏRİNDƏ SUFİ ORUCU VƏ
MİR HƏMZƏ SEYİD NİGARİNİN "ÇAYNAMƏ" MƏSNƏVİSİNDƏ ÇAY MƏDƏNİYYƏTİ
ƏSASLI SUFİ ƏDƏBİ
Fariz Xəlilli ..... 217

BAYRAM FENOMENİ: SOSİAL ZAMAN, QONAQPƏRVƏRLİK, PAYLAŞMA VƏ
BARIŞIN RİTUAL MƏDƏNİYYƏTİ
Pərvin Ahənçi ..... 222

ƏNƏNƏDƏN İRSƏ: NOVRUZ MƏRASİMLƏRİ KOLLEKTİV YADDAŞ VƏ
İDENTİKLİK KONTEKSTİNDƏ
Pərvin Ahənçi ..... 243

NOVRUZ OYUNLARI VƏ XALQ ƏYLƏNCƏLƏRİ
Kübra Əliyeva ..... 258

NAR FESTİVALININ KEÇİRİLMƏSİ TARİXİ VƏ GÖYÇAY RAYONUNUN İQTİSADİ,
SOSİAL-MƏDƏNİ HƏYATINDAKI ROLU
Adil Məmmədov ..... 268

NARIN AZƏRBAYCAN MƏDƏNİYYƏTİNDƏ YERİ VƏ SİMVOLİKASI
Ümidə Məcnunlu ..... 273

"SƏMƏNİ" ADLI QƏDİM VƏ MÜQƏDDƏS MAYE-İÇKİNİN HAZIRLANMA ƏNƏNƏSİNİN
BƏRPASINA DAİR
Kübra Əliyeva ..... 276

SƏDƏF SƏNƏTİ: TARİXİ, MAHİYYƏTİ VƏ TƏTBİQİ
Balabəy Balabəyov ..... 283

AZƏRBAYCAN MUĞAMI HAQQINDA BƏZİ QEYDLƏR
Mehman Mikayılov ..... 286

FOTOLAR ..... 290

# BAYRAM FENOMENİ: SOSİAL ZAMAN, QONAQPƏRVƏRLİK, PAYLAŞMA VƏ BARIŞIN RİTUAL MƏDƏNİYYƏTİ

**Pərvin Ahənçi**
tarix üzrə fəlsəfə doktoru, dosent
Qarabağ Universiteti,
AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu
https://doi.org/10.30546/19023.2026.1001.365

**Giriş.** Bayramlar insan cəmiyyətlərinin mədəni həyatında mühüm yer tutan sosial-mədəni hadisələrdən biridir. Onlar yalnız təqvimlə bağlı mərasimlər deyil, həm də kollektiv davranış modellərinin formalaşmasına, sosial münasibətlərin yenilənməsinə və mədəni dəyərlərin nəsildən-nəslə ötürülməsinə xidmət edən kompleks ritual praktikalar sistemidir. Bu baxımdan bayram fenomeni yalnız folklor və etnoqrafiya çərçivəsində deyil, həm də sosial antropologiya, mədəni yaddaş, mədəni irs və post-konflikt tədqiqatları kontekstində araşdırılmalı olan mühüm analitik kateqoriya kimi çıxış edir.

Müasir humanitar elmlərdə bayram fenomeninə yanaşma onun çoxqatlı strukturunu nəzərə almağı tələb edir. Bayramlar həm sosial institut, həm simvolik sistem, həm də kollektiv emosional təcrübə kimi fəaliyyət göstərir. Bu çoxqatlılıq göstərir ki, bayram yalnız müşahidə olunan mərasim deyil, həm də sosial reallığın qurulmasında və yenidən təşkilində aktiv iştirak edən mühüm mexanizmdir.

Sosioloji və antropoloji ədəbiyyatda bayram və ritual praktikalarının cəmiyyət daxilində sosial münasibətlərin formalaşmasında mühüm rol oynadığı vurğulanır. Emil Dyurkheym (Émile Durkheim) kollektiv mərasimlərin cəmiyyət üzvləri arasında ortaq emosional təcrübə yaratdığını və sosial həmrəyliyin güclənməsinə xidmət etdiyini göstərirdi [11]. Antropoloji yanaşmalar da bayramların sosial münasibətlərin müvəqqəti olaraq yenidən qurulduğu və kollektiv dəyərlərin ritual formalar vasitəsilə təsdiqləndiyi xüsusi sosial məkan yaratdığını ortaya qoyur. Bu kontekstdə Viktor Törner (Victor Turner) ritual proseslərini sosial transformasiya mexanizmi kimi izah edərək, bu mərasimlərin gündəlik sosial strukturların müvəqqəti olaraq dəyişdiyi "liminal məkan" yaratdığını qeyd edir [28, s. 94-96]. Eyni zamanda, Ketrin Bell (Catherine Bell) ritualın sosial dəyərlərin legitimləşdirilməsi və yenidən qurulmasında oynadığı rolu vurğulayır [7, s. 70-89].

Bayram fenomeninin daha dərin təhlili onun kollektiv yaddaşla əlaqəsini də nəzərə almağı tələb edir. Moris Halbvaks (Maurice Halbwachs) qeyd edirdi ki, yaddaş fərdi deyil, sosial çərçivələr daxilində formalaşır və kollektiv şəkildə qorunur [15]. Bu baxımdan bayramlar yalnız cari sosial münasibətlərin deyil, həm də keçmişin kollektiv şəkildə xatırlanmasının və yenidən mənalandırılmasının mühüm vasitələrindən biridir.

Yan Assman (Jan Assmann) isə mədəni yaddaş anlayışını inkişaf etdirərək göstərmişdir ki, ritual və mərasimlər cəmiyyətin uzunmüddətli yaddaşını formalaşdıran əsas mexanizmlərdən biridir [3]. Beləliklə, bayramlar vasitəsilə keçmiş təcrübələr, dəyərlər və sosial normalar simvolik şəkildə təkrar canlandırılır və gələcək nəsillərə ötürülür. Bu kontekstdə bayram fenomeni yalnız mədəni ənənə kimi deyil, həm də qonaqpərvərlik, paylaşma və barış kimi sosial dəyərlərin ritual şəkildə ifadə olunduğu mühüm mədəni institut kimi çıxış edir. Bayram günlərində ailə və icma üzvlərinin bir araya gəlməsi, kollektiv süfrələrin təşkili, qonaq qəbul etmə və sosial münasibətlərin yenilənməsi kimi praktikalar cəmiyyət daxilində sosial bağların möhkəmlənməsinə xidmət edir. Xüsusilə post-konflikt cəmiyyətlərdə bayramın bu funksiyaları

daha dərin və çoxqatlı məna kəsb edir; bu kontekstlərdə bayram yalnız ənənənin qorunması ilə məhdudlaşmır, eyni zamanda kollektiv yaddaşın yenidən aktivləşdirilməsi, sosial münasibətlərin bərpası və identikliyin rekonstruksiyası üçün mühüm mexanizm kimi çıxış edir.

Tədqiqatın məqsədi bayram fenomenini qonaqpərvərlik, paylaşma və barışın ritual mədəniyyəti kontekstində kompleks şəkildə təhlil etməkdir. Məqalədə bayramın sosial funksiyaları, ritual praktikaları və kollektiv davranış modellərinin formalaşmasına təsiri antropoloji və sosioloji nəzəriyyələr əsasında araşdırılır. Eyni zamanda, bayramın kollektiv yaddaşla əlaqəsi, post-konflikt cəmiyyətlərdə oynadığı rol və müasir transformasiyaları nəzəri və empirik əsasda təhlil olunur. Məqalədə bayramın kollektiv yaddaşla əlaqəsi sistemli şəkildə nəzərdən keçirilir, onun mürəkkəb sosial dəyişikliklər şəraitində (xüsusilə post-konflikt mühitlərdə) oynadığı rol nəzəri və empirik əsasda təhlil olunur. Eyni zamanda, bayram fenomeni sivilizasiyalararası müqayisə çərçivəsində struktur və simvolik davamlılıq aspektlərində araşdırılır, həmçinin qloballaşma, urbanizasiya və rəqəmsallaşma proseslərinin təsiri altında müasir transformasiyaları geniş şəkildə qiymətləndirilir.

**Metodologiya və yanaşma.** Bu tədqiqat bayram fenomeninin sosial və mədəni funksiyalarını kompleks şəkildə təhlil etmək məqsədilə keyfiyyət yönümlü (qualitative) tədqiqat dizaynına əsaslanır. Araşdırma çərçivəsində bayram yalnız folklor və ya ənənəvi mədəni hadisə kimi deyil, sosial münasibətlərin yenidən qurulduğu, kollektiv yaddaşın aktivləşdiyi və ictimai dəyərlərin ritual praktikalar vasitəsilə ifadə olunduğu çoxqatlı sosial fenomen kimi nəzərdən keçirilir.

Tədqiqatın metodoloji əsasını antropoloji və sosioloji yanaşmalar təşkil edir. Bu kontekstdə Emil Dyurkheymin kollektiv mərasimlərin sosial həmrəyliyin formalaşmasındakı rolu haqqında nəzəriyyəsi, Viktor Törnerin liminallıq və kommunitas anlayışları, eləcə də Ketrin Bellin ritualın sosial praktika kimi təhlili araşdırmanın nəzəri çərçivəsini müəyyənləşdirir. Bununla yanaşı, sosial zaman anlayışının izahında Pitirim Sorokin və Robert K. Merton [26, s. 615-629] tərəfindən irəli sürülmüş konsepsiyalardan istifadə olunmuşdur. Bu yanaşmalar bayramın yalnız təqvim hadisəsi deyil, sosial məna daşıyan zaman forması kimi başa düşülməsinə imkan verir.

Tədqiqat interdisiplinar yanaşmaya əsaslanır və sosial antropologiya, mədəni yaddaş nəzəriyyəsi və vizual-antropoloji analiz metodlarını birləşdirir. Araşdırma çərçivəsində müqayisəli mədəni təhlil, nəzəri modelləşdirmə, simvolik analiz və vizual materialların interpretasiyası metodlarından istifadə olunmuşdur.

Empirik baza müəllifin uzunmüddətli sahə tədqiqatları çərçivəsində Qarabağ münaqişəsi nəticəsində məcburi köçkün və qaçqın düşmüş şəxslərlə aparılmış müsahibələrə əsaslanır. Bu materiallar bayramın yaddaşda necə qorunduğunu, onun itirilmiş məkanla bağlı simvolik mənalarını və yeni sosial mühitdə necə transformasiya olunduğunu göstərir. Respondentlərin narrativləri bayramın yalnız sosial praktika deyil, həm də emosional, identiklik və kollektiv yaddaşla bağlı fenomen kimi çıxış etdiyini ortaya qoyur. Bununla yanaşı, tədqiqat antropoloji və sosioloji nəzəri çərçivələrə, eləcə də sivilizasiyalararası müqayisəli materiallara əsaslanaraq bayram fenomeninin müxtəlif mədəni kontekstlərdə struktur və simvolik funksiyalarını təhlil edir.

Məlumatların təhlilində narrativ və diskurs analiz metodlarından istifadə edilmişdir. Bu yanaşma respondentlərin ifadələrində bayramın necə mənalandırıldığını, hansı simvolik elementlərlə əlaqələndirildiyini və sosial yaddaşın strukturunda hansı yer tutduğunu müəyyən etməyə imkan verir. Eyni zamanda, bayramın qonaqpərvərlik, paylaşma və barış kimi sosial funksiyalarının necə formalaşdığı və yenidən qurulduğu təhlil edilmişdir.

Beləliklə, seçilmiş metodoloji yanaşma bayram fenomeninin yalnız təsviri deyil, həm də analitik və izah edici səviyyədə araşdırılmasına imkan yaradır və onun həm ənənəvi, həm də sosial transformasiya şəraitlərindəki çoxşaxəli rolunu üzə çıxarmağa imkan yaradır.

**Sosial zaman və bayram fenomeni.** Bayram fenomeninin ən fundamental xüsusiyyətlərindən biri onun sosial zamanın xüsusi forması kimi çıxış etməsidir. Gündəlik həyatın ardıcıl, funksional və nisbətən sabit zaman quruluşu bayram dövründə transformasiyaya uğrayır və cəmiyyət fərqli bir rejimə keçir. Bu rejim daxilində sosial münasibətlər, davranış qaydaları və emosional vəziyyətlər dəyişir. Bu baxımdan bayram yalnız müəyyən bir dövrdə baş verən hadisə deyil, həm də sosial zamanın yenidən təşkil olunmasıdır.

Sosial zaman anlayışı cəmiyyətin həyat ritmini və ictimai münasibətlərin təşkilini izah edən əsas nəzəri kateqoriyalardan biridir. O, astronomik zaman anlayışından fərqlənir. Astronomik zaman fasiləsiz və neytral xronoloji ardıcıllıq kimi qəbul edillir. Sosial zaman isə insan fəaliyyətləri, ictimai funksiyalar və kollektiv təcrübələr əsasında formalaşır. Gündəlik həyatın "adi zamanı" ilə bayram zamanı arasında yalnız xronoloji deyil, həm də semantik fərq mövcuddur. Bu yanaşma xüsusilə Pitirim Sorokin və Robert K. Merton tərəfindən inkişaf etdirilmişdir. Onlar yanaşmasına əsasən, "müxtəlif sosial və elmi kontekstlərdə bu anlayış fərqli şəkildə qavranılır və ictimai həyatın təşkilində o, yalnız ölçü vahidi deyil, həm də funksional və mənəvi məna daşıyan bir kateqoriyadır" [26, s. 615-629].

Emil Dyurkheymin kollektiv mərasimlər haqqında yanaşması bu prosesi izah etmək üçün mühüm çərçivə təqdim edir. Onun fikrincə, ritual fəaliyyət zamanı fərdlər gündəlik həyatın məhdudiyyətlərindən çıxaraq kollektiv emosional vəziyyətə daxil olur və bu vəziyyət cəmiyyətin özünü vahid birlik kimi hiss etməsinə şərait yaradır [11, s. 217-221]. Lakin bu yanaşma daha çox bayramın inteqrativ funksiyasını vurğulayır; daha geniş perspektivdə isə bayram fenomeni zamanın strukturlaşdırılmasının alternativ modelini təqdim edir.

Törnerin liminal nəzəriyyəsi bu alternativ modeli daha dərindən izah etməyə imkan verir. Liminal mərhələdə cəmiyyət "'keçid mərhələsinə" daxil olur və bu vəziyyət sosial iyerarxiyaların müvəqqəti olaraq zəifləməsi ilə xarakterizə olunur [28, s. 94-96]. Bayram zamanı yaranan bu vəziyyət yalnız sosial strukturun zəifləməsi deyil, həm də yeni sosial münasibət formalarının meydana çıxması deməkdir. Bu baxımdan bayram sosial zamanın "fasiləsi" deyil, əksinə, onun ən intensiv və mənalı formasıdır.

Azərbaycan kontekstində bu fenomen xüsusilə Novruz bayramında aydın şəkildə müşahidə olunur. Novruz yalnız yeni ilin başlanğıcı deyil, həm də sosial zamanın yenilənməsi kimi qəbul edilir. Bu yenilənmə yalnız təbiətlə bağlı deyil, eyni zamanda sosial münasibətlərin və kollektiv həyatın ritminin yenidən qurulması ilə bağlıdır. Nəbiyev bu prosesi kosmoloji və sosial harmoniyanın bərpası kimi izah edir [21, s. 45-52].

Bu xüsusiyyət yalnız Novruz bayramına xas deyil, ümumilikdə Azərbaycan mərasim mədəniyyətinin müxtəlif formalarında müşahidə olunur. Dini bayramlar (Qurban, Ramazan), ailəvi mərasimlər (toy, nişan, ad günləri), eləcə də yas və anım mərasimləri sosial zamanın müxtəlif formalarda strukturlaşdırılmasını təmin edir. Bu mərasimlər vasitəsilə cəmiyyət yalnız zamanın axarını qeyd etmir, həm də onu mənalandırır, təşkil edir və sosial çərçivəyə salır.

Məcburi köçkünlük şəraitində isə sosial zamanın bu xüsusiyyəti daha mürəkkəb xarakter alır. Bayram yalnız "yeni zamanın başlanğıcı" deyil, həm də "itirilmiş zamanın xatırlanması" funksiyasını daşıyır. Bu baxımdan bayram dövründə keçmiş və indiki təcrübələr üst-üstə düşərək çoxqatlı zaman qavrayışı yaradır. Respondentlərin bayramı həm qeyd etməsi, həm də keçmişlə müqayisə etməsi bu mürəkkəbliyi aydın şəkildə göstərir. Sahə materialları göstərir ki,

respondentlərin əksəriyyəti üçün bayram yalnız cari zamanın bir hissəsi deyil, həm də itirilmiş keçmişin yenidən yaşandığı simvolik məkan kimi qəbul olunur.

Bununla yanaşı, bəzi respondentlər qeyd edirlər ki, onların həyatı Qarabağda gənc olduqları dövrdə "yarımçıq qalmışdır" və bayramlar həmin dövrə emosional qayıdış forması kimi yaşanır. Digər respondentlər isə geri dönüş təcrübəsini fərqli şəkildə ifadə edərək, bildirirlər ki, uzunmüddətli məcburi köçkünlük onların həyatında sanki "zaman boşluğu" yaratmış, həyat isə yalnız geri dönüşdən sonra yenidən başlamışdır. Bu narrativlər bayramın fərdi və kollektiv yaddaşda qırılmış zamanın bərpasında və yenidən mənalandırılması prosesində mühüm rol oynadığını göstərir [1].

Sosial zamanın başlanğıc nöqtələri təsadüfi deyil, ictimai əhəmiyyət daşıyan hadisələrlə müəyyən olunur. Təqvim sistemlərinin əsaslandığı bu nöqtələr: dini hadisələr, mövsümi dəyişikliklər, mühüm tarixi hadisələr və ya kollektiv yaddaşda xüsusi yer tutan anlar cəmiyyətin özünü necə dərk etdiyini əks etdirir. Bu baxımdan bayramlar yalnız zamanın ölçülməsi üçün deyil, həm də sosial zamanın yenidən təşkil olunduğu əsas dayaq nöqtələri kimi çıxış edir.

Beləliklə, bayram fenomeni sosial zamanın yalnız ölçülməsi deyil, onun yenidən qurulması, mənalandırılması və kollektiv şəkildə yaşanması prosesinin əsas mexanizmlərindən biridir.

**Bayramın performativ və simvolik strukturu.** Bayram fenomeninin təhlilində onun performativ və simvolik xarakterini nəzərə almadan bu sosial hadisəni tam şəkildə anlamaq mümkün deyil. Məsələn, Novruz bayramı zamanı həyata keçirilən praktikalar: qovurqa qovurmaq, süfrə hazırlamaq, tonqal qalamaq, bayrmlaşmaq, şam yandırmaq, torba atmaq və s. yalnız gündəlik davranışlar deyil, simvolik məna daşıyan performativ aktlardır. Bu aktlar vasitəsilə cəmiyyət özünü ifadə edir və kollektiv yaddaşını aktiv şəkildə yenidən qurur.

Ketrin Bell ritualın performativ xarakterini vurğulayaraq göstərir ki, ritual fəaliyyətlər yalnız təkrarlanan hərəkətlər deyil, sosial reallığın formalaşdırılmasında aktiv rol oynayan praktikalardı [7, s. 81-84]. Bu baxımdan bayram ritualı yalnız mövcud sosial münasibətləri əks etdirmir, eyni zamanda onları yenidən qurur və legitimləşdirir.

Azərbaycan folklorşünaslığında bu yanaşma Məhərrəm Qasımlının əsərlərində öz əksini tapır. O, bayram mərasimlərini "mədəni mətn" kimi təhlil edərək göstərir ki, onlar vasitəsilə cəmiyyət öz dəyərlərini və kollektiv təcrübəsini ifadə edir [22, s. 56-60]. Bu baxımdan bayram yalnız davranış forması deyil, həm də "oxunan" və "şərh olunan" sosial mətn kimi çıxış edir.

Novruz bayramının simvolik strukturu xüsusilə zəngindir. Səməni həyatın və yenilənmənin rəmzi kimi çıxış edir, tonqal təmizlənmə, saflaşma və keçid funksiyasını daşıyır, şamlar isə fərdi və ailəvi davamlılığı ifadə edir. Bu simvollar yalnız estetik elementlər deyil, sosial və mədəni mənalarla ifadə olunan strukturlardır.

Məcburi köçkünlük şəraitində bu simvolların mənası daha da dərinləşir. Məsələn, tonqal yalnız baharın gəlişini deyil, həm də keçmişlə əlaqənin qorunmasını simvolizə edir. Eyni şəkildə səməni yalnız təbiətin oyanışı deyil, həm də həyatın davamlılığı və ümidin təcəssümü kimi qəbul olunur. Bu kontekstdə bayram simvolları ənənənin elementi olmaqdan çıxaraq kollektiv davamlılığın mühüm mexanizminə çevrilir.

Beləliklə, bayram fenomeni performativ və simvolik strukturların vəhdəti kimi çıxış edərək sosial reallığın həm ifadə olunması, həm də yenidən qurulması prosesində mühüm rol oynayır.

**Nəzəri çərçivə.** Bayram fenomeninin təhlili müxtəlif elmi yanaşmaların kəsişməsində formalaşan kompleks nəzəri çərçivə tələb edir. Hazırkı tədqiqatda bayram yalnız ənənəvi

folklor hadisəsi kimi deyil, sosial münasibətlərin yenidən qurulduğu, kollektiv yaddaşın aktivləşdiyi və ictimai dəyərlərin simvolik şəkildə ifadə olunduğu çoxqatlı sosial və mədəni hadisə kimi nəzərdən keçirilir.

Sosioloji yanaşma çərçivəsində Emil Dyurkheymin ritualı kollektiv şüurun ifadə forması kimi izah edərək onun sosial həmrəyliyin formalaşmasında oynadığı rolu vurğulayır. Dyurkheymə görə, kollektiv mərasimlər zamanı yaranan emosional birlik - "kollektiv coşqu" (collective effervescence) - fərdləri vahid mənəvi sistem ətrafında birləşdirir və kollektiv identikliyin möhkəmlənməsinə xidmət edir [11, s. 217, 221-223]. Bu baxımdan bayramlar kollektiv emosional yüksəlişin - "kollektiv coşqunun" - yaşandığı və sosial bağların gücləndiyi xüsusi zaman kəsiyi kimi çıxış edir.

Antropoloji yanaşmada Viktor Törner ritual prosesləri sosial transformasiya mexanizmi kimi şərh edərək göstərir ki, bu mərasimlər gündəlik sosial strukturların müvəqqəti olaraq zəiflədiyi "liminal" (keçid, aralıq) vəziyyət yaradır [28, s. 94-96]. Bu mərhələdə formalaşan "communitas" (bərabərlik və kollektiv, birlik hissi) fərdlər arasında birlik və sosial yaxınlıq duyğusunu gücləndirir. Bayramlar bu mənada yalnız keçid mərhələsi deyil, həm də sosial münasibətlərin yenidən qurulduğu transformativ məkan kimi çıxış edir.

Ritualın sosial praktika kimi təhlili Ketrin Bell tərəfindən daha da inkişaf etdirilmişdir. O, göstərir ki, ritual fəaliyyətlər yalnız simvolik hərəkətlər deyil, sosial münasibətlərin qurulması və legitimləşdirilməsi prosesində aktiv rol oynayan praktikalar kimi çıxış edir [6, s. 74-76]. Bu baxımdan bayramlar sosial nizamın həm əks olunduğu, həm də formalaşdırıldığı mədəni mühitdir.

Bayram fenomeninin zamanla bağlı aspektlərinin izahında Pitirim Sorokin və Robert K. Merton tərəfindən irəli sürülmüş sosial zaman anlayışı xüsusi əhəmiyyət kəsb edir. Onların yanaşmasına görə, sosial zaman astronomik ardıcıllıqdan fərqli olaraq, cəmiyyət tərəfindən mənalandırılan hadisələr əsasında formalaşır [26, s. 615-629]. Bu baxımdan bayramlar sosial zamanın strukturlaşdırılmasının əsas mexanizmlərindən biri kimi çıxış edir və kollektiv həyatın ritmini müəyyən edir.

Ritual və mövsümi yenilənmə proseslərinin izahında Ceyms Corc Freyzerin (James George Frazer) yanaşması xüsusi əhəmiyyət kəsb edir. Freyzer yaz bayramlarını təbiətin dövri dirçəlişi ilə əlaqələndirərək, bu mərasimlərin həm kosmoloji, həm də simvolik məna daşıdığını vurğulayır [12, s. 678-685]. Onun yanaşması bayramların yalnız sosial hadisə kimi deyil, həm də təbiət və insan münasibətlərinin mədəni interpretasiyası kimi başa düşülməsinə imkan verir. Bu baxımdan yaz bayramları və yenilənmə ritualları təbiətin dövri dirçəlişi ilə bağlı olaraq, yalnız mədəni deyil, eyni zamanda kosmik əsaslara malik universal fenomenlər kimi ortaya çıxır [12, s. 683-685].

Qeyd edilən nəzəri yanaşmalar Azərbaycan kontekstində etnoqrafik və folklorşünaslıq ənənəsi ilə tamamlanır. Azərbaycan alimlərinin tədqiqatları bayram fenomeninin sosial funksiyalarını daha konkret və empirik şəkildə izah etməyə imkan verir. Hikmət Quliyev, bayramları sosial strukturun dövri yenilənmə mexanizmi kimi şərh edərək göstərir ki, bu mərasimlər sosial münasibətlərin yalnız təkrarı deyil, həm də yenidən qurulduğu xüsusi mərhələlərdir [23].

Azad Nəbiyev bayram fenomenini, xüsusilə Novruzu, kosmoloji və simvolik sistem kimi təhlil edərək onun insan, təbiət və kosmos arasında harmoniyanın bərpasına xidmət etdiyini qeyd edir [21].

Ağaverdi Xəlil bayramları mifoloji, təqvim və ritual elementlərin qarşılıqlı əlaqəsi əsasında formalaşan kompleks sistem kimi izah edir [30]. Onun yanaşmasına görə, bayram sistemi yalnız

mövsümi dəyişikliklərlə deyil, həm də sosial münasibətlərin ritmik şəkildə təşkil olunması ilə bağlıdır. Xəlil xüsusilə vurğulayır ki, tonqal qalamaq, su və od ritualları, təmizlənmə və süfrə hazırlığı kimi praktikalar sosial və mənəvi yenilənmə proseslərinin simvolik ifadəsidir.

Məhərrəm Qasımlı bayramları performativ mədəni mətn kimi təhlil edərək göstərir ki, ritual praktikalar vasitəsilə cəmiyyət öz kollektiv yaddaşını və sosial dəyərlərini ifadə edir [22].

Güllü Yoloğlu isə mərasim mədəniyyətinin davamlılığını ailə və icma daxilində təkrarlanan gündəlik praktikalar vasitəsilə izah edir [31]. Bu yanaşma göstərir ki, bayram yalnız ictimai hadisə deyil, həm də sosial həyatın daxili struktur elementi kimi çıxış edir. Xüsusilə qadınların bayram hazırlıqlarında oynadığı rol ənənənin nəsildən-nəslə ötürülməsində mühüm əhəmiyyət daşıyır.

Müəllifin sahə materialları göstərir ki, bu mikro-praktikalar məcburi köçkünlük şəraitində belə öz funksionallığını və simvolik əhəmiyyətini qoruyaraq bayramın davamlılığını təmin edən əsas mexanizmlərdən birinə çevrilir. Bu nəticələr Azərbaycan tədqiqatçılarının mərasim mədəniyyəti ilə bağlı əvvəlki araşdırmalarını davam etdirərək, bayramın kollektiv yaddaşın qorunması və sosial əlaqələrin bərpası baxımından rolunu daha geniş empirik əsasda təsdiqləyir [1].

Beləliklə, təqdim olunan nəzəri çərçivə Qərb və Azərbaycan alimlərinin yanaşmalarını birləşdirərək bayram fenomenini sosial, mədəni, simvolik və zamanla bağlı aspektlərin qarşılıqlı təsiri kontekstində kompleks şəkildə izah etməyə imkan verir. Bu yanaşma bayramı yalnız ənənəvi mərasim kimi deyil, sosial münasibətlərin yenidən qurulduğu, kollektiv yaddaşın aktivləşdiyi və identikliyin formalaşdığı dinamik proses kimi təhlil etməyə şərait yaradır. Bayram fenomeninin sosial-antropoloji təhlili göstərir ki, bu mərasimlər yalnız mədəni ənənələrin təkrarı deyil, eyni zamanda cəmiyyətin özünü yenidən qurduğu və sosial əlaqələrin aktiv şəkildə bərpa olunduğu xüsusi zaman-məkan mühitidir.

**Bayram və kollektiv yaddaş: Ritual rekonstruksiya və simvolik davamlılıq.** Bayram fenomeninin daha dərin nəzəri təhlili onun kollektiv yaddaşla əlaqəsi çərçivəsində aparıldıqda, bu hadisənin yalnız sosial münasibətlərin deyil, həm də zaman və məkan daxilində kollektiv təcrübənin davamlılığını təmin edən kompleks mədəni mexanizm olduğu aydın olur. Moris Halbvaks kollektiv yaddaşın fərdi şüurdan kənarda, sosial çərçivələr daxilində formalaşdığını vurğulayaraq qeyd edirdi ki, yaddaş sosial qruplar daxilində yenidən qurulur və mövcud sosial strukturlardan asılıdır [15, s. 38]. Bu yanaşma bayram fenomeninin mahiyyətini anlamaq üçün xüsusi əhəmiyyət kəsb edir, çünki bayramlar məhz həmin sosial çərçivələrin ritmik və simvolik şəkildə yenidən qurulduğu mədəni sahə kimi çıxış edir.

Bu kontekstdə Yan Assman tərəfindən irəli sürülən mədəni yaddaş konsepsiyası xüsusi əhəmiyyət kəsb edir. Assmanna görə, "mədəni yaddaş - ritual, simvol və kollektiv təcrübələr vasitəsilə keçmişin strukturlaşdırılmış şəkildə gələcəyə ötürülməsi prosesidir" [3, s. 36-41]. Bu baxımdan bayramlar yalnız keçmişin xatırlanması deyil, həm də onun yenidən qurulması və aktual sosial kontekstdə mənalandırılması funksiyasını yerinə yetirir. Beləliklə, bayram fenomeni yaddaşın passiv saxlanılması deyil, onun aktiv rekonstruksiyası mexanizmi kimi çıxış edir.

Assmannın yanaşmasına əsasən, "ritual və mərasimlər uzunmüddətli mədəni yaddaşın ötürülməsində əsas rol oynayır; bayramlar isə yaddaşın "canlı saxlanılması"nı təmin edən və onun davamlılığını qoruyan funksiyanı yerinə yetirir" [3, s. 36-41]. Bayramlar vasitəsilə cəmiyyət öz keçmişini yalnız xatırlamır, həm də təcrübələri, dəyərləri və simvolları təkrar edərək yenidən qurur və nəsillərarası davamlılığı təmin edir. Beləliklə, bayram fenomeni yalnız sosial münasibətlərin deyil, eyni zamanda kollektiv yaddaşın qorunması və ötürülməsi üçün mühüm simvolik sistem kimi dəyərləndirilə bilər.

Bu nəzəri yanaşmaların sintezində müəllif bayram fenomenini yalnız kollektiv yaddaşın ötürülməsi deyil, həm də onun aktiv bərpası, yəni "ritual vasitəsilə sosial bərpa" mexanizmi kimi konseptuallaşdırır.

**Bayram fenomeni: Sivilizasiyalararası müqayisədə struktur və simvolik davamlılıq.** Bayram fenomeninin müqayisəli təhlili göstərir ki, müxtəlif sivilizasiyalarda bu fenomen oxşar struktur xüsusiyyətlərinə malik olsa da, hər bir mədəniyyət onu öz tarixi və sosial kontekstinə uyğun şəkildə formalaşdırır. Bu universallıq bayramın insan cəmiyyətlərinin fundamental sosial ehtiyaclarından qaynaqlandığını göstərir.

Bu kontekstdə bayramların vizual və ritual komponentlərinin təhlili onların kollektiv yaddaşın "materiallaşmış forması" kimi çıxış etdiyini göstərir. Müxtəlif sivilizasiyalara aid bayram praktikalarının müqayisəli analizi (qədim Türk şaman mərasimləri, Misir məhsul bayramları, Roma Saturnaliyası və digər nümunələr) göstərir ki, bu mərasimlər yalnız dini və ya iqtisadi hadisələr deyil, həm də cəmiyyətin özünü zaman və məkan daxilində dərk etməsinin simvolik vasitələridir.

Bayram fenomeninin sivilizasiyalararası müqayisəsi göstərir ki, müxtəlif mədəniyyətlərdə tonqal və od ətrafında icra olunan ritual praktikalar: tullanma, kollektiv müşahidə, effigyanın yandırılması kollektiv yaddaşın aktivləşdirilməsi və sosial zamanın yenidən təşkili funksiyasını yerinə yetirir. Bu praktikalar yalnız dini və ya folklorik hadisələr deyil, həm də cəmiyyətin özünü zaman daxilində yenidən qurmasının simvolik mexanizmləridir. Bayram fenomeninin nəzəri yanaşma ilə yanaşı vizual və simvolik təhlili onun mədəniyyətlərarası universallığını, eyni zamanda lokal xüsusiyyətlərini daha aydın şəkildə ortaya qoyur. Müxtəlif sivilizasiyalarda bayramların təsviri göstərir ki, bu fenomen insan cəmiyyətlərinin ən qədim kollektiv təcrübələrindən biri olaraq həm sosial birlik, həm də kosmik nizamın kollektiv şəkildə təsdiqlənməsi funksiyasını daşıyır.

Məsələn, qədim türk mərasimlərində tonqal ətrafında keçirilən kollektiv ayinlər insanın təbiət və kosmosla əlaqəsini simvolizə edirdi. Bu mərasimlərdə iştirak edən fərdlər yalnız müşahidəçi deyil, kollektiv ritualın aktiv iştirakçıları kimi çıxış edirdilər. Tonqal isə həm təmizlənmə və yenilənmə simvolu, həm də kollektiv yaddaşın simvolik mərkəzi funksiyasını yerinə yetirirdi. Bu ayinlər kollektiv yaddaşın ən qədim qatlarının formalaşmasına xidmət edirdi.



**Şəkil 1.** Azərbaycan. Tonqal üzərindən tullanma - təmizlənmə və yenilənmə ritualını ifadə edən ənənə.

Azərbaycan Novruz ənənəsində tonqal üzərindən tullanma - təmizlənmə və yenilənmə aktı kimi - fərdin köhnə vəziyyətdən çıxaraq yeni sosial mərhələyə keçidini simvolizə edir [21, s. 45-52]. Bu ritual, Viktor Törnerin liminallıq modeli çərçivəsində sosial strukturun müvəqqəti olaraq dayandırıldığı və yenidən qurulduğu keçid zonasını təmsil edir [28, s. 94-96].



**Şəkil 2.** İran. Novruz bayramı ərəfəsində keçirilən Çaharşənbə Suri mərasimində tonqal üzərindən tullanma - təmizlənmə və yenilənmə ritualını ifadə edən ənənə.

İranda Novruz bayramı ərəfəsində keçirilən Çaharşənbə Suri mərasimində tonqal üzərindən tullanma "Zardi-ye man az to, sorkhi-ye to az man" ("Mənim sarılığım [xəstəliyim] sənə, sənin qırmızılığın [sağlamlığın] mənə") ifadəsi ilə müşayiət olunur və fərdi xəstəliklərin oda ötürülməsi, sağlamlığın əldə olunması kimi şərh edilir. Bu mərasim qışdan bahara keçidi simvolizə edən dövrdə icra olunur və təmizlənmə ilə yenilənmə ideyası mərkəzdə durur. Ritual həm fərdi, həm də kollektiv səviyyədə yenilənmə aktı kimi çıxış edir: fərd öz fiziki və mənəvi yükündən "azad olur", kollektiv isə bu simvolik akt vasitəsilə sosial enerjini yeniləyir və birlik hissini gücləndirir.

Meri Boysun (Mary Boyce) araşdırmalarına əsasən, Çaharşənbə Suri mərasimi təmizlənmə və yenilənmə ilə bağlı qədim ritual praktikaları əks etdirir [9, s. 44-46]. Bu kontekstdə, mərasim Viktor Törnerin liminallıq konsepsiyası çərçivəsində sosial və simvolik transformasiyanın baş verdiyi keçid zonası kimi interpretasiya oluna bilər.



**Şəkil 3.** Hindistan. Holika Dahan - Holi bayramı ərəfəsində icra olunan od ritualı. Yaxşılığın pislik üzərində qələbəsini simvolizə edən, rənglər bayramına hazırlıq xarakteri daşıyan təmizlənmə mərasimi.

Hindistanın Holika Dahan mərasimi çərçivəsində (Holi bayramı ərəfəsində) tonqal ətrafında toplanmaq, kollektiv şəkildə müşahidə və effigyanın (simvolik fiqurun və ya kuklanın) yandırılması vasitəsilə "pisliyin məhv edilməsi" və "yaxşılığın qələbəsi" simvolizə olunur. Mərasim adətən qış mövsümünün sonunu və baharın başlanğıcını qeyd edən dövrdə icra olunur. Kristofer Fullerin (Christopher J. Fuller) qeyd etdiyi kimi, "burada iştirakçılar odun üzərindən tullanmasalar da, ritualın vizual və simvolik gücü kollektiv yaddaşın yenilənməsinə xidmət edir" [13, s. 108-110].

Mrasimin simvolik strukturu daha geniş mədəni-tarixi paralellər çərçivəsində şərh oluna bilər. Xüsusilə, od vasitəsilə "pisliyin məhv edilməsi" ideyası Zərdüştilikdə işıq və qaranlıq, xeyir və şər arasındakı kosmik qarşıdurma modeli ilə səsləşir. Bu dualist sistemdə Ahura Mazda (xeyir və işıq prinsipi) ilə Angra Mainyu (Ahriman - şər və qaranlıq prinsipi) arasındakı mübarizə mərkəzi yer tutur və nəticə etibarilə xeyirin qələbəsi ilə tamamlanır.

Kosmik qarşıdurma kontekstində od yalnız fiziki element kimi deyil, həm də təmizləyici və transformativ gücün simvolu kimi çıxış edir. Odun Zərdüştilik kontekstindəki rolu ilə bağlı tədqiqatlarda vurğulandığı kimi, bu simvolik funksiya onun ritual praktikalar daxilində xüsusi yer tutmasını şərtləndirir [18, s. 36]. Bu baxımdan, Holika Dahan mərasimində odun təmizləyici və transformativ gücünün vurğulanması yalnız lokal dini-mədəni kontekstlə məhdudlaşmır, həm də daha geniş Avrasiya ritual sistemlərində müşahidə olunan "pisliyin yandırılması", "pisliyin aradan qaldırılması" və "yaxşılığın bərpası", "yaxşılığın qələbəsi" kimi arxetipik motivlərlə səsləşir. Beləliklə, mərasim mövsümi keçidi simvolizə etməklə yanaşı, sosial zamanın yenidən qurulması və kollektiv mənəvi nizamın bərpası funksiyasını yerinə yetirir.



**Şəkil 4.** Şotlandiya. Beltane Od Bayramı. Yenilənmə mövsümünün qarşılanması və məhsuldarlıq ideyasının simvolik ifadəsi kimi alov üzərindən tullanma ritualı.

Şotlandiyada keçirilən Beltane Od bayramında tonqal üzərindən tullanma məhsuldarlıq, qorunma və baharın qarşılanması ilə əlaqələndirilir. Ronald Hattonun (Ronald Hutton) qeyd etdiyi kimi, "mərasim iştirakçıları qədim Kelt inanclarına əsaslanaraq od vasitəsilə təbiətlə harmoniyanı bərpa etməyə çalışırlar" [17, s. 218-222].

Beltane Od Festivalı 1988-ci ildən Edinburqda fəaliyyət göstərən "Beltane Fire Society" assosiasiya tərəfindən təşkil olunur və bu qurum festivalın könüllülərini, performanslarını və ritual çərçivəsini koordinasiya edir [8]. Bununla belə, qeyd etmək vacibdir ki, Beltane yalnız Şotlandiyaya məxsus lokal ənənə deyil, qədim Avropa pagan mədəniyyətinin daha geniş ritual sisteminin bir hissəsi kimi formalaşmışdır və müasir dövrdə beynəlxalq miqyasda qeyd olunur. Tarixi baxımdan Beltane İrlandiya, İngiltərə, Almaniya və Skandinaviya kimi Avropa

ölkələrində geniş yayılmışdır. Müasir dövrdə isə ABŞ, Kanada, Avstraliya və digər ölkələrdə ritual təqvimin mühüm elementi kimi qorunub saxlanılmışdır.

Bu bayram yaz bərabərliyi (Ostara) ilə yay gündönümü (Litha) arasında, adətən 1 May tarixində ("May Day") keçirilir və baharın zirvəsini, eyni zamanda yaxınlaşan yayın başlanğıcını simvolizə edir, xüsusilə məhsuldarlıq, yenilənmə və həyat gücü ilə əlaqələndirilir. Mərasimlərdə tonqallar, məhsuldarlıq ritualları və icma birliyini möhkəmləndirən kollektiv ayinlər əsas yer tutur .Xüsusilə, maypole rəqsi (çiçəklərlə və lentlərlə bəzədilmiş uzun dirək ətrafında dairəvi şəkildə icra olunan kollektiv hərəkət) baharın zirvəsini, məhsuldarlığı və icma birliyini (social harmoniyanı) simvolizə edir. İştirakçılar lentləri toxuyaraq mürəkkəb naxışlar yaradır və bu proses kollektiv yaddaşın aktivləşdirilməsi ilə yanaşı, sosial zamanın yenidən təşkili funksiyasını yerinə yetirir.

Qeyd edilən vizual paralellər göstərir ki, tonqal və od müxtəlif mədəniyyətlərdə liminal keçid, təmizlənmə, yenilənmə və kollektiv yaddaşın aktivləşməsi funksiyalarını daşıyan universal simvollardır. Ketrin Bellin vurğuladığı kimi, bayramların ritual komponentləri cəmiyyətin özünü zaman daxilində yenidən qurmasının və sosial münasibətlərin transformasiyasının simvolik dilini formalaşdırır [7, s. 160-165]. Beləliklə, göstərilən nümunələr bayram fenomeninin performativ və simvolik strukturunun necə formalaşdığını və sosial praktikalar vasitəsilə təcəssüm etdiyini aydın şəkildə nümayiş etdirir. Bu mərasimlər vasitəsilə bayram yalnız ənənələrin təkrarı kimi deyil, həm də kollektiv davranışların icra olunduğu, sosial münasibətlərin yenidən qurulduğu və simvolik mənaların aktiv şəkildə formalaşdırıldığı kompleks bir sistem kimi çıxış edir.



**Şəkil 5.** Qədim Misir. Nilin bərəkətini qeyd edən Məhsul Bayramı - təbiətə minnətdarlığın və sosial harmoniyanın ritual ifadəsi.

Eyni məntiq qədim Misir məhsul bayramlarında da müşahidə olunur. Nil çayının daşması ilə bağlı keçirilən mərasimlər yalnız iqtisadi dövrün qeyd olunması deyil, həm də təbiət, ilahi qüvvələr və cəmiyyət arasında harmoniyanın ritual şəkildə təsdiqlənməsi idi. Bu mərasimlər Nil çayının bərəkəti və məhsuldarlığın qeyd olunduğu müqəddəs ayinlər kimi icra olunurdu. İcma üzvləri bayramlarda həm kollektiv minnətdarlıq göstərir, həm də sosial birliklərini

möhkəmləndirirdilər. Fironun və icma üzvlərinin birgə iştirakı ilə icra olunan mərasimlər vasitəsilə cəmiyyət öz mövcudluğunu kosmik nizam daxilində yerləşdirir və onu kollektiv şəkildə yenidən təsdiqləyirdi.

Saturn qədim Roma dinində tanrı, mifologiyada isə zamanın, bolluğun, kənd təsərrüfatının, dövri yenilənmənin və azadlığın simvolu kimi təqdim olunur. Onun hakimiyyəti mifoloji olaraq bolluq və sülh dolu "Qızıl Çağ" ilə əlaqələndirilir. Saturnaliya bayramı çərçivəsində insanlar togada, başlarında dəfnə (laurel) tacları ilə şənliklərdə iştirak edir, şərab, yemək, musiqi və rəqs bolluğu müşahidə olunurdu. Bu mərasimlərdə əsgərlər, qadınlar və yaşlılar birlikdə iştirak edir, ümumi sevinc, şənlik mühiti sosial bərabərlik və azadlıq ideyasını simvolizə edirdi [5; 19; 29].



**Şəkil 6.** İtaliya, Qədim Roma - Saturnaliya bayramı. Sosial bərabərlik, azadlıq və müvəqqəti sosial inversiyanı simvolizə edən kollektiv şənlik.

Roma Saturnaliya bayramı sosial strukturun müvəqqəti olaraq transformasiyaya uğradığı xüsusi bir fenomen kimi səciyyələndirilə bilər. Bu dövrdə sosial rollar inversiyaya (statusların dəyişməsi) məruz qalır, qullar və sahiblər arasında münasibətlər müvəqqəti olaraq dəyişirdi. Viktor Törnerin liminallıq konsepsiyası bu proseslərin sosial dinamikasını izah etmək üçün mühüm nəzəri çərçivə təqdim edir. Törner göstərir ki, "ritual mərasimlər zamanı cəmiyyət "strukturdan kənar vəziyyətə" daxil olur və bu vəziyyət sosial münasibətlərin yenidən qurulmasına imkan yaradır" [28, s. 96].

Bu baxımdan Saturnaliya kimi bayramlar sosial gərginliyin azaldıldığı və sosial balansın müvəqqəti olaraq yenidən qurulduğu "ritual boşalma zonası" kimi çıxış edir. "Bu tip mərasimlər sosial sistemin sabitliyini təmin edən paradoksal mexanizmlərdir: onlar müvəqqəti xaos yaradaraq uzunmüddətli nizamı qoruyurlar" [28, s. 96]. Bu müqayisələr göstərir ki, bayram fenomeni arxetipik struktur xüsusiyyətlərinə malikdir və insan cəmiyyətlərinin fundamental ehtiyaclarından qaynaqlanır.

İslam dünyasında Ramazan və Qurban bayramları paylaşma, sosial məsuliyyət və mənəvi təmizlənmə prinsipləri üzərində qurulmuşdur. Ramazan ayı boyunca oruc tutmaq yalnız fərdi ibadət forması deyil, həm də sosial empatiyanın və kollektiv məsuliyyət hissinin gücləndirilməsi vasitəsidir. İftar süfrələri ətrafında ailə və icma üzvlərinin bir araya gəlməsi kollektiv birliyi möhkəmləndirir və sosial bağların yenilənməsinə xidmət edir.



**Şəkil 7.** İslam dünyasında Ramazan. İftar süfrəsi ətrafında ailə. Orucun açılması mərasimi; kollektiv iştirak, paylaşma və sosial həmrəyliyi təcəssüm etdirir.

Qurban bayramı isə paylaşma və sosial ədalət prinsiplərinin ritual ifadəsi kimi çıxış edir. Qurban ətinin ehtiyacı olanlarla bölüşdürülməsi cəmiyyət daxilində qarşılıqlı dəstək və bərabərlik ideyalarını gücləndirir. Bu baxımdan hər iki bayram yalnız dini mərasim deyil, həm də sosial münasibətlərin yenidən qurulduğu və kollektiv dəyərlərin praktik şəkildə təsdiqləndiyi mühüm mədəni institut kimi çıxış edərək, cəmiyyət daxilində sosial bərabərlik, məsuliyyət, yaxşılıq və qarşılıqlı dəstək mexanizmlərinin güclənməsinə xidmət edir.



**Şəkil 8.** İslam dünyasında Qurban bayramı. Qurban kəsimi və paylanması. Paylaşma, sosial bərabərlik və mənəvi yenilənmə prinsiplərini təcəssüm etdirir.

Azərbaycan kontekstində bu yanaşmalar xüsusilə Novruz bayramında aydın şəkildə müşahidə olunur. Novruz yalnız təbiətin yenilənməsi ilə bağlı bayram deyil, həm də sosial münasibətlərin və kollektiv yaddaşın yenidən qurulduğu kompleks ritual sistemdir. Küsülülərin barışması, borcların qaytarılması, evlərin təmizlənməsi və kollektiv süfrələrin təşkili kimi praktikalar sosial və mənəvi yenilənmə prosesinin ritual ifadəsi kimi çıxış edir. Eyni zamanda Novruz süfrəsi (səməni, şirniyyatlar, şam və digər simvollar) bolluq, kollektiv paylaşma və birlik ideyasının ritual ifadəsi kimi çıxış edir. Bu süfrə yalnız qida deyil, həm də mədəni kodların və sosial dəyərlərin simvolik təcəssümüdür. Bu baxımdan Novruz Törnerin liminal keçid modeli ilə uyğunluq təşkil edir: cəmiyyət köhnə vəziyyətdən çıxaraq yeni sosial balans mərhələsinə daxil olur.




**Şəkil 9.** Azərbaycan, Şuşa. Novruz bayramı. Tonqal üzərindən tullanma ritualı. Azad edilmiş məkanda yenidən icra olunan bu mərasim baharın gəlişini, kollektiv yaddaşın bərpasını və kimliyin yenilənməsini simvolizə edir.

Bu proses post-konflikt məkanlarda, xüsusilə Şuşada Novruzun qeyd olunması kontekstində daha dərin məna qazanır. Burada bayram yalnız təqvim hadisəsi deyil, həm də kollektiv yaddaşın və məkanla əlaqənin bərpası aktına çevrilir. Tonqal üzərindən tullanma kimi ənənəvi ritual praktikalar bu kontekstdə yeni semantik məna qazanaraq, travmatik təcrübənin aşılması və kollektiv identikliyin yenidən qurulmasının simvoluna çevrilir. Bu baxımdan bayram fenomenini Turnerin liminallıq yanaşması çərçivəsində, ritual vasitəsilə sosial və simvolik "qayıdış" mexanizmi kimi təhlil etmək mümkündür.



**Şəkil 10.** Azərbaycan, Bakı. Yeni il bayramı. Qlobal mədəniyyətin bir hissəsi kimi kollektiv sevinc, ictimai birlik və müasir bayram mədəniyyətini təcəssüm etdirir.

Müasir dövrdə Yeni il bayramı qlobal mədəniyyətin bir hissəsinə çevrilərək müxtəlif mədəniyyətləri birləşdirən universal model kimi çıxış edir. Bu bayram yalnız təqvim dəyişməsi deyil, həm də zamanın simvolik yenilənməsi kimi qəbul olunur. Şam ağacı, işıqlandırmalar və

kollektiv qeyd etmə praktikaları yeni başlanğıc ideyasını vizual və ritual formaya çevirir. Yeni il gecəsi fərdi və kollektiv səviyyədə keçmişin yekunlaşdırılması və gələcəyə yönəlmiş ümidlərin formalaşdırılması ilə xarakterizə olunur. Bu baxımdan Yeni il bayramı qlobal miqyasda ortaq simvolik dil yaradan və müxtəlif mədəniyyətləri vahid zaman təcrübəsi ətrafında birləşdirən müasir ritual model kimi çıxış edir.

Bu müqayisəli təhlil göstərir ki, bayram fenomeninin əsas struktur elementləri: kollektiv iştirak, simvolik yenilənmə, təmizlənmə, paylaşma və sosial münasibətlərin transformasiyası universal xarakter daşıyır. Bu elementlər vasitəsilə bayram yalnız müəyyən hadisələrin qeyd olunması deyil, həm də sosial zamanın yenidən təşkil olunduğu, kollektiv yaddaşın aktivləşdiyi və cəmiyyətin özünü yenidən dərk etdiyi xüsusi mərhələ kimi çıxış edir. Bu baxımdan bayram fenomeni sosial həyatın ritmini müəyyən edən və fərdi təcrübələri kollektiv mənaya çevirən mühüm mədəni mexanizm rolunu oynayır. Lakin bu ümumi struktur xüsusiyyətlərinə baxmayaraq, bayramların konkret ifadə formaları, simvolik məzmunu və praktik icra üsulları mədəni kontekstdən, tarixi təcrübədən və sosial şəraitdən asılı olaraq dəyişir.


Beləliklə, bayram fenomeni yalnız kollektiv yaddaşın qorunması ilə məhdudlaşmır; o, yaddaşın aktiv rekonstruksiyası, sosial münasibətlərin transformasiyası və cəmiyyətin özünü zaman və məkan daxilində yenidən müəyyən etməsi prosesinin mərkəzində dayanır.

**Qonaqpərvərlik fenomeni: Sosial münasibətlərin ritual kodu.** Bayram fenomeninin ən mühüm komponentlərindən biri olan qonaqpərvərlik yalnız sosial davranış norması deyil, həm də kollektiv yaddaşın və mədəni identikliyin əsas struktur elementlərindən biridir. Azərbaycan və ümumilikdə Şərq mədəniyyətində qonaqpərvərlik anlayışı evin açıq qapısı, süfrənin paylaşılması və qonağın xüsusi statusu ilə əlaqələndirilir. Lakin bu praktikaların dərin təhlili göstərir ki, qonaqpərvərlik yalnız etik norma deyil, həm də sosial münasibətlərin qurulmasının və tənzimlənməsinin ritual formasıdır.

Qonaqpərvərlik Azərbaycan mədəniyyətində fundamental sosial dəyər olmaqla yanaşı, kollektiv yaddaşın strukturlaşdırıcı elementlərindən biri kimi çıxış edir. O, yalnız davranış norması deyil, həm də cəmiyyətin özünüqavrayışını və sosial münasibətlər sistemini formalaşdıran mədəni mexanizmdir. Xüsusilə bayram günlərində qonaqpərvərlik sosial münasibətlərin yenidən qurulmasının əsas vasitəsinə çevrilir və fərdlərarası münasibətlərin strukturunda mühüm transformasiyalar baş verir.

Bayram kontekstində qonaqpərvərlik aktı xüsusi semantik məna qazanır. Gündəlik həyatda mövcud olan sosial məsafələr bu dövrdə zəifləyir və ya müvəqqəti olaraq aradan qalxır və fərdlər arasında yeni münasibət formaları yaranır. Qonaq "yad" statusundan çıxaraq sosial sistemə inteqrasiya olunur və müvəqqəti olaraq ailənin və ya icmanın strukturuna daxil edilir. Bu proses sosial sərhədlərin elastikliyini nümayiş etdirir və bayramın bu elastikliyi mümkün edən sosial-mədəni mexanizm kimi rolunu ortaya qoyur. Bu baxımdan qonaqpərvərlik fenomenini fərdin sosial sistemə ritual vasitəsilə daxil edilməsi prosesi kimi şərh etmək mümkündür. Bu yanaşma Viktor Törnerin liminallıq və "communitas" anlayışları ilə səsləşir, çünki bu proses zamanı fərd mövcud sosial sərhədləri aşaraq kollektiv birliyə inteqrasiya olunur.

Bayram fenomeninin əsas sosial funksiyalarından biri qonaqpərvərlik və paylaşma praktikalarının gücləndirilməsidir. Antropoloji tədqiqatlar göstərir ki, bir çox cəmiyyətlərdə bayram günləri kollektiv paylaşma və sosial münasibətlərin yenilənməsi üçün xüsusi sosial məkan yaradır.



**Şəkil 11.** Qonaqpərvərlik fenomeninin simvolik ifadəsi: açıq qapı və bayram süfrəsi. Açıq qapı qəbul və paylaşmaya açıqlığı, süfrə isə qonaqpərvərlik və sosial harmoniyanı təcəssüm etdirən ritual kod kimi çıxış edir.

Marsel Mossun (Marcel Mauss) məşhur "hədiyyə" nəzəriyyəsi bu fenomeni izah etmək üçün mühüm nəzəri alət təqdim edir. Onun nəzəriyyəsində göstərilir ki, paylaşma və hədiyyə mübadiləsi cəmiyyət daxilində sosial münasibətlərin qurulmasında və qarşılıqlı öhdəliklərin formalaşmasında mühüm rol oynayır [20]. O, qeyd edirdi ki, "hədiyyə mübadiləsi yalnız iqtisadi akt deyil, həm də sosial əlaqələrin və qarşılıqlı öhdəliklərin qurulması prosesidir. Hədiyyə vermək, qəbul etmək və qarşılıq vermək sosial bağların qurulmasını təmin edir" [20, s. 3]. Deməli, hədiyyə yalnız maddi mübadilə deyil, həm də sosial münasibətlərin və qarşılıqlı etimadın qurulmasına xidmət edən mədəni mexanizmdir. Bu baxımdan bayram süfrəsi və qonaqpərvərlik aktı sadəcə paylaşma deyil, həm də sosial münasibətlərin qurulması və möhkəmləndirilməsi mexanizmidir. Bu baxımdan Mossun "hədiyyə" nəzəriyyəsi paylaşmanın sosial münasibətlərin qurulmasının əsas mexanizmlərindən biri olduğunu göstərir. Bayramlarda bu proses daha intensiv şəkildə müşahidə olunur.

Marşall Sahlins isə mübadilə və paylaşma sistemlərini təhlil edərək göstərmişdir ki, kollektiv paylaşma praktikaları sosial münasibətlərin qurulması və icma daxilində qarşılıqlı əlaqələrin möhkəmlənməsi üçün mühüm vasitədir. Onun qarşılıqlı mübadilə modelləri bu prosesi daha da aydınlaşdırır. Sahlins qeyd edir ki, paylaşma və mübadilə yalnız iqtisadi sistem deyil, sosial etimadın qurulmasının əsas mexanizmidir [24, s. 185-189]. Bayram kontekstində qonaqpərvərlik bu etimadın maksimum səviyyədə ifadə olunduğu vəziyyətdir. Burada "qonaq" anlayışı sosial sərhədləri aşır və fərd müvəqqəti olaraq kollektivin bir hissəsinə çevrilir.

Bu baxımdan bayram günlərində kollektiv süfrələrin təşkil olunması, qonaq qəbul etmə və qida paylaşımı kimi praktikalar yalnız kulinariya ənənəsi deyil, həm də sosial münasibətlərin ritual şəkildə ifadə olunduğu mədəni praktikalar kimi qiymətləndirilə bilər. Qonaqpərvərlik isə sosial etik sistemin əsas elementlərindən biri kimi çıxış edir və cəmiyyət daxilində "mənəvi iqtisadiyyat"ın (moral economy) formalaşmasına xidmət edir. Bu nəzəri çərçivəni E.P.Tompson (E.P.Thompson) formalaşdırmış və sonradan Ceyms Skott (James C. Scott) tərəfindən inkişaf etdirilmişdi. Tompson bu anlayışı ənənəvi icmalarda iqtisadi münasibətlərin yalnız bazar prinsipləri ilə deyil, həm də sosial ədalət, qarşılıqlı öhdəlik və etik normalar əsasında tənzimləndiyini izah etmək üçün istifadə etmişdir [27]. Ceyms Skott isə bu yanaşmanı genişləndirərək, göstərmişdir ki, "mənəvi iqtisadiyyat" xüsusilə kənd icmalarında qarşılıqlı yardım və sosial təhlükəsizlik mexanizmlərinin əsasını təşkil edir [25]. Beləliklə, bayram kontekstində qonaqpərvərlik və paylaşma praktikaları yalnız sosial münasibətlərin qurulması deyil, eyni zamanda qarşılıqlı etimad və sosial məsuliyyətə əsaslanan münasibətlər sisteminin davamlı şəkildə yenidən qurulması kimi çıxış edir.

Azərbaycan cəmiyyətində qonaqpərvərliyin bu qədər güclü olması təsadüfi deyil. Tarixi olaraq müxtəlif mədəniyyətlərin kəsişdiyi məkan olan bu coğrafiyada sosial münasibətlərin qorunması və möhkəmləndirilməsi həyati əhəmiyyət kəsb etmişdir. Bayramlar isə bu münasibətlərin ən intensiv, simvolik və sosial baxımdan ən yüksək səviyyədə ifadə olunduğu məkan kimi çıxış edir.

**Paylaşma fenomeni: Sosial mübadilə və "mənəvi iqtisadiyyat".** Bayram fenomeninin ikinci əsas komponenti paylaşmadır. Bayram kontekstində paylaşma yalnız maddi nemətlərin bölüşdürülməsi deyil, həm də sosial və mənəvi münasibətlərin qurulması və təsdiqi prosesidir. Marşall Sahlinsin (Marshall Sahlins) iqtisadi-antropoloji yanaşmasına görə, ənənəvi cəmiyyətlərdə mübadilə sistemləri yalnız iqtisadi deyil, həm də sosial münasibətlərin strukturunu müəyyən edir [24, s. 185]. Bu baxımdan bayramlarda baş verən paylaşma praktikaları sosial mübadilə sisteminin intensivləşmiş forması kimi çıxış edir.



**Şəkil 12.** Novruz bayramı süfrəsi - paylaşma və hədiyyə mübadiləsinin simvolik məkanı.

Bayram süfrəsi Mossun nəzəriyyəsinin həmin üçlü strukturunu ("hədiyyə vermək, qəbul etmək və qarşılıq vermək") açıq şəkildə əks etdirir. Qida paylaşımı yalnız fiziki ehtiyacın ödənilməsi deyil, sosial dövriyyənin və qarşılıqlı öhdəliklərin davam etdirilməsidir. Bayram zamanı paylaşma praktikalarının miqyası adi günlərlə müqayisədə əhəmiyyətli dərəcədə genişlənir. İnsanlar yalnız ailə daxilində deyil, qonşularla, tanışlarla və ehtiyacı olanlarla da paylaşırlar. Bu isə paylaşmanın sosial əhatə dairəsini genişləndirərək onu kollektiv xarakterli fenomenə çevirir.

Paylaşmanın bu genişlənmiş forması məcburi köçkünlük və post-konflikt kontekstində xüsusi əhəmiyyət kəsb edir. Qarabağ münaqişəsi nəticəsində məcburi köçkün düşmüş icmalar arasında aparılmış müşahidələr göstərir ki, məhdud resurslara baxmayaraq bayram zamanı paylaşma daha da güclənir. Bu fakt paylaşmanın yalnız iqtisadi deyil, həm də sosial və mənəvi mexanizm olduğunu bir daha təsdiqləyir. Bu paradoksal vəziyyət "az olanın daha çox paylaşılması" fenomeni sosial həmrəyliyin güclənməsi ilə izah olunur. Beləliklə, paylaşma yalnız maddi deyil, həm də emosional və simvolik resursların mübadiləsini əhatə edir. O, kollektiv yaddaşın, identikliyin və sosial bağlılığın qorunması üçün əsas mexanizmlərdən birinə çevrilir.

Bu modeldə əsas prinsip qarşılıqlı fayda deyil, qarşılıqlı etimad və sosial məsuliyyətdir. Bayram süfrəsində paylaşma fərdlər arasında iqtisadi bərabərsizliyi müvəqqəti olaraq zəiflədir və sosial birlik hissini gücləndirir. Bu baxımdan paylaşma fenomenini "mənəvi iqtisadiyyat" (moral economy), yəni etik əsaslara söykənən sosial-iqtisadi sistem kimi təhlil etmək mümkündür. Bayramlar bu sistemin ən intensiv şəkildə təzahür etdiyi zamanlardır.

**Qurban bayramı: paylaşmanın və sosial məsuliyyətin ritual forması.** Qurban bayramı bir çox müsəlman cəmiyyətlərində paylaşma və sosial yardım praktikalarının ən aydın ifadə olunduğu mərasimlərdən biridir. Bu bayramın əsas xüsusiyyətlərindən biri qurban paylarının ailə üzvləri, qohumlar, qonşular və ehtiyacı olan insanlar arasında bölüşdürülməsidir. Paylaşma praktikası yalnız dini ritualın icrası deyil, həm də sosial münasibətlərin möhkəmlənməsinə xidmət edən mühüm mədəni mexanizmdir. Qurban payının müxtəlif sosial qruplar arasında bölüşdürülməsi icma daxilində qarşılıqlı dəstək və sosial məsuliyyət hissini gücləndirir, eyni zamanda sosial ədalətin praktik ifadəsi kimi çıxış edir.

Bayram günlərində qonaqpərvərlik və kollektiv süfrə ənənələri geniş yayılır. Ailə üzvləri və yaxın sosial mühit nümayəndələri bir araya gəlir, kollektiv yeməklər təşkil olunur və sosial münasibətlər yenilənir. Bu proses bayram fenomeninin sosial funksiyalarını aydın şəkildə nümayiş etdirir.

**Bayram və barış mədəniyyəti: Sosial bərpa mexanizmi.** Bayram fenomeninin mühüm xüsusiyyətlərindən biri onun sosial münasibətlərin yenilənməsi və barış mədəniyyətinin təşviqi ilə sıx bağlı olmasıdır. Bir çox mədəniyyətlərdə bayram günlərində insanlar arasında sosial məsafələr azalır, gərginliklər yumşalır, qarşılıqlı ziyarətlər intensivləşir və sosial münasibətlərin yenidən qurulması üçün xüsusi sosial məkan formalaşır. Bu baxımdan barış və sosial bərpa prosesi bayram fenomeninin nisbətən az tədqiq olunmuş, lakin olduqca əhəmiyyətli aspektlərindən biridir.

Bayram günlərində küsülülərin barışması, münasibətlərin bərpası və qarşılıqlı əlaqələrin yenidən qurulması geniş şəkildə müşahidə olunur. Bu proses yalnız fərdi deyil, həm də kollektiv səviyyədə baş verir. Fərdlər gündəlik həyatın sərt sosial strukturlarından müvəqqəti olaraq çıxaraq daha açıq, elastik və tolerant münasibətlər qururlar.

Antropoloji tədqiqatlar göstərir ki, kollektiv mərasimlər sosial münasibətlərin yenidən qurulması və icma daxilində qarşılıqlı etimadın bərpa olunmasında mühüm rol oynayır. Bayram günlərində insanların bir-birini ziyarət etməsi, qonaq qəbul etməsi və kollektiv mərasimlərdə iştirakı sosial məsafələrin azalmasına və qarşılıqlı əlaqələrin güclənməsinə xidmət edir.

Bu proses Viktor Törnerin liminallıq və kommunitas anlayışları ilə izah olunur. O, göstərir ki, ritual mərhələdə fərdlər mövcud sosial strukturdan kənar, "liminal" vəziyyətə daxil olaraq yeni sosial münasibətlər və kollektiv bağlılıq formaları yaradırlar [28, s. 94-96]. Bu mərhələ sosial iyerarxiyaların müvəqqəti olaraq zəiflədiyi və fərdlər arasında daha bərabər və birbaşa əlaqələrin formalaşdığı xüsusi sosial vəziyyətdir.

Bayramlar məhz bu liminal vəziyyəti institusionallaşdıraraq onu təkrarlanan sosial mexanizmə çevirir. Bu cür liminal mühitdə sosial iyerarxiyalar zəifləyir, mövcud gərginliklər azalır və fərdlər arasında yeni sosial əlaqələr formalaşır. Bu baxımdan bayram yalnız ənənəvi mədəni hadisə deyil, həm də sosial münasibətlərin yenidən tənzimləndiyi, konfliktlərin yumşaldıldığı və icma daxilində yeni balansın qurulduğu mühüm sosial institut kimi çıxış edir.

Nəticə etibarilə bayram fenomeni yalnız mədəni ənənə deyil, həm də sosial münasibətlərin və kollektiv davranış modellərinin tənzimləndiyi mühüm sosial institut kimi çıxış edir. Beləliklə, tədqiqat çərçivəsində bayram fenomenini ritual əsaslı sosial barış və bərpa mexanizmi ("ritual reconciliation") kimi təhlil etmək mümkündür. Bu yanaşma göstərir ki, bayramlar sosial əlaqələri yalnız formalaşdırmaqla kifayətlənmir, həm də onları bərpa edir və yenidən qurur. Bu yanaşma xüsusilə post-konflikt cəmiyyətlərin öyrənilməsi üçün mühüm nəzəri çərçivə təqdim edir.

Azərbaycan mədəniyyətində bayram günlərində küsülülərin barışdırılması, münasibətlərin bərpası və qarşılıqlı ziyarətlərin təşviqi bu funksiyanın açıq təzahürüdür. Həmin praktikalar göstərir ki, bayram yalnız sosial münasibətləri əks etdirmir, həm də onları aktiv şəkildə dəyişdirən və yenidən

quran sosial mexanizm kimi çıxış edir.

**Toy mərasimləri: Sosial müqavilənin ritual forması.** Toy mərasimləri bayram fenomeninin xüsusi və kompleks formalarından biri kimi qiymətləndirilə bilər. Onlar yalnız ailəvi hadisə deyil, eyni zamanda sosial münasibətlərin kollektiv şəkildə yenidən qurulduğu və institusionallaşdırıldığı çoxqatlı ritual sistemdir. Bu baxımdan toy mərasimləri fərdi münasibətlərin ictimai müstəviyə çıxarıldığı və kollektiv şəkildə tanındığı mühüm sosial hadisə kimi çıxış edir.

Toy mərasimində qonaqpərvərlik, paylaşma, hədiyyə mübadiləsi və kollektiv iştirak kimi elementlər sosial bağların möhkəmlənməsinə xidmət edir. Bu elementlərin hər biri cəmiyyət daxilində qarşılıqlı münasibətlərin qurulması və davam etdirilməsi baxımından xüsusi əhəmiyyət daşıyır. Xüsusilə hədiyyə mübadiləsi prosesi Marsel Mossun "hədiyyə" nəzəriyyəsi kontekstində izah oluna bilər: "Hədiyyə yalnız maddi mübadilə deyil, eyni zamanda sosial öhdəliklərin və qarşılıqlı münasibətlərin uzunmüddətli sistemini formalaşdıran mexanizmdir" [20, s. 13-15]. Toy mərasimlərində təqdim olunan hədiyyələr bu baxımdan gələcək sosial əlaqələrin davamlılığını təmin edən qarşılıqlı öhdəliklər sisteminin bir hissəsinə çevrilir.

Toy mərasimləri həmçinin fərdi münasibətlərin kollektiv təsdiqi funksiyasını yerinə yetirir. Ailə qurmaq aktı yalnız iki fərd arasında bağın yaradılması deyil, həm də iki ailə və daha geniş sosial şəbəkələr arasında yeni münasibətlərin qurulması deməkdir. Bu proses zamanı fərdi seçim kollektiv razılıq və sosial legitimlik qazanır. Beləliklə, toy mərasimi sosial münasibətlərin rəsmiləşdirildiyi və kollektiv şəkildə qəbul edildiyi xüsusi mərasim kimi çıxış edir.

Bu baxımdan toy mərasimlərini sosial müqavilənin ritual forması kimi təhlil etmək mümkündür. Burada "müqavilə" anlayışı hüquqi deyil, sosial və simvolik məna daşıyır. Toy vasitəsilə fərdlər və ailələr arasında qarşılıqlı öhdəliklər, məsuliyyətlər və gözləntilər müəyyən olunur və bu münasibətlər kollektiv yaddaşda sabitləşdirilir. Ritualın təkrarlanan və simvolik xarakteri bu müqavilənin davamlılığını təmin edir.

Nəticə etibarilə, toy mərasimləri yalnız mədəni ənənənin bir elementi deyil, həm də cəmiyyət daxilində sosial münasibətlərin qurulduğu, təsdiqləndiyi və davam etdirildiyi mühüm sosial institut kimi çıxış edir. Bu yanaşma toy mərasimlərini yalnız ailə hadisəsi kimi deyil, sosial strukturların formalaşması və reproduksiyası baxımından mühüm analitik kateqoriya kimi dəyərləndirməyə imkan verir.

Toy mərasimlərində sosial münasibətlərin qurulması və kollektiv şəkildə təsdiqlənməsi prosesi eyni zamanda bu münasibətlərin davamlılığını və qorunmasını da zəruri edir. Lakin sosial həyatın dinamik təbiəti nəzərə alındıqda, bu münasibətlərin zamanla gərginlik və ziddiyyətlərlə üzləşməsi qaçılmazdır. Bu baxımdan bayram fenomeninin digər mühüm funksiyası yalnız sosial əlaqələri formalaşdırmaq deyil, həm də onları bərpa etmək və yenidən tənzimləməkdən ibarətdir. Məhz bu məqamda bayramlar sosial barış və münasibətlərin yenilənməsi üçün xüsusi ritual məkan kimi çıxış edir.

**Müasir dövrdə bayramın transformasiyası: Qloballaşma, urbanizasiya və rəqəmsal mühit.** Müasir dövrdə bayram fenomeni qloballaşma, urbanizasiya və rəqəmsallaşma proseslərinin təsiri altında əhəmiyyətli transformasiyalara məruz qalır. Sosial həyatın sürətlənməsi, şəhər mühitinin genişlənməsi və kommunikasiya texnologiyalarının inkişafı bayram praktikalarının formasını dəyişdirsə də, onların əsas sosial funksiyaları böyük ölçüdə qorunub saxlanılır.

Urbanizasiya kontekstində bayramlar ənənəvi kənd və icma mühitindən fərqli olaraq daha fərdiləşmiş və məkan baxımından parçalanmış formalar alır. Böyük şəhərlərdə kollektiv iştirakın intensivliyi müəyyən qədər azalsa da, bayramlar hələ də kollektiv emosional təcrübənin mühüm

məkanı olaraq qalır. Ziqmunt Bauman (Zygmunt Bauman) "müasir şəhər həyatında sosial münasibətlərin daha çevik və fərdiləşmiş xarakter alması bayram praktikalarının strukturuna da təsir göstərirməsini" qeyd edir [4, s. 78]. Ailə daxilində keçirilən mərasimlər, kiçik sosial şəbəkələrdə təşkil olunan görüşlər və simvolik praktikalar vasitəsilə bayramın sosial bağları gücləndirən funksiyası davam etdirilir. Bu baxımdan bayram fenomeni dəyişən sosial şəraitə uyğunlaşaraq öz funksional davamlılığını təmin edir.

Qloballaşma isə bayramların həm məzmununa, həm də təqdimat formalarına təsir göstərir. Müxtəlif mədəni təsirlərin qarşılıqlı əlaqəsi nəticəsində bəzi bayram elementləri standartlaşır və kommersiyalaşma meylləri güclənir. Bununla yanaşı, qloballaşma prosesi bayramların simvolik əhəmiyyətini zəiflətməkdən daha çox onların yeni kontekstlərdə yenidən mənalandırılmasına şərait yaradır. Bu baxımdan Arcun Appadurayın (Arjun Appadurai) qeyd etdiyi kimi, "mədəni praktikalar yalnız lokal çərçivədə deyil, qlobal mədəni axınların təsiri altında formalaşır" [2, s. 33]. Beləliklə, bayramlar həm lokal, həm də qlobal identikliklərin kəsişmə nöqtəsinə çevrilir.

Rəqəmsallaşma bayram fenomeninin transformasiyasında xüsusi rol oynayır. Sosial media və rəqəmsal platformalar vasitəsilə bayramların qeyd olunması yeni formalar qazanır: virtual təbriklər, onlayn mərasimlər və rəqəmsal yaddaş praktikaları bayramın məkan sərhədlərini genişləndirir. Manuel Kastells (Manuel Castells) rəqəmsal kommunikasiya texnologiyalarının inkişafı sosial münasibətlərin qurulma formalarını dəyişdirərək bayramların da yeni interaktiv müstəviyə keçməsinə şərait yaratdığını vurğulayır. "Bu proses bayramın yalnız fiziki iştirakla məhdudlaşmadığını, həm də rəqəmsal mühitdə davam edən sosial və simvolik fəaliyyət forması olduğunu göstərir. Bununla belə, rəqəmsal formatlar bayramın kollektiv emosional təcrübə funksiyasını tam əvəz etmir, əksinə onu tamamlayan yeni kommunikasiya qatını formalaşdırır" [10, s. 500].

Diaspora kontekstində bayram fenomeni xüsusi əhəmiyyət kəsb edir. Xaricdə yaşayan icmalar üçün bayramlar milli identikliyin qorunması və nəsildən-nəslə ötürülməsi üçün əsas vasitələrdən birinə çevrilir. Stüart Holun (Stuart Hall) qeyd etdiyi kimi, "bu mühitdə bayramlar yalnız qeyd edilmir, həm də şüurlu şəkildə "yaşadılır" və "yenidən qurulur". Diaspora şəraitində identiklik sabit deyil, davamlı şəkildə yenidən qurulan sosial və mədəni proses kimi çıxış edir" [16, s. 225]. Dil, mədəni simvollar, kollektiv süfrə və ritual praktikalar vasitəsilə icmalar öz mənsubiyyət hissini qoruyur və möhkəmləndirir. Bu baxımdan diaspora şəraitində bayramlar kollektiv yaddaşın aktiv saxlanılması və identikliyin reproduksiyası üçün mühüm sosial mexanizm kimi çıxış edir.

Beləliklə, müasir transformasiyalar fonunda bayram fenomeni forma və ifadə baxımından dəyişsə də, onun əsas funksiyaları (sosial münasibətlərin qurulması, kollektiv yaddaşın qorunması və identikliyin formalaşdırılması) davamlı olaraq qalır. "Bu baxımdan müasir dövrdə bayram fenomeni dəyişən sosial şəraitdə özünü yenidən quraraq davamlılıq nümayiş etdirən dinamik sosial institut kimi qiymətləndirilə bilər" [14, s. 32].

Nəticə. Bayram fenomeninin çoxşaxəli təhlili göstərir ki, o, yalnız təqvim hadisəsi və ya folklor ənənəsi deyil, cəmiyyətin sosial strukturunun yenidən qurulmasını təmin edən fundamental mədəni mexanizmdir. Bayramlar vasitəsilə sosial münasibətlər yenilənir, kollektiv yaddaş aktivləşir və mədəni identiklik davamlılıq qazanır. Bu baxımdan bayramlar, Dyurkheymin vurğuladığı kimi, kollektiv həmrəyliyin və sosial birliyin gücləndirilməsində mühüm rol oynayan kollektiv mərasimlər kimi çıxış edir [11, s. 44].

Yekun olaraq, tədqiqat göstərir ki, bayram fenomeni klassik etnoqrafik və ya funksional yanaşmalar çərçivəsində tam izah olunmayan çoxqatlı sosial hadisədir. Bu fenomen aşağıdakı bir-biri ilə əlaqəli funksiyaları özündə birləşdirir:

- sosial münasibətlərin yenidən qurulması;
- kollektiv yaddaşın rekonstruksiyası;
- məkanın simvolik mənalandırılması;
- post-konflikt şəraitdə sosial bərpa.

Bu proseslər Halbvaksın kollektiv yaddaş nəzəriyyəsi ilə uzlaşaraq göstərir ki, sosial yaddaş yalnız xatırlama deyil, həm də sosial çərçivələr daxilində yenidən qurulan dinamik prosesdir [15, s. 38].

Qarabağ və xüsusilə Şuşa nümunəsi bu fenomenin ən güclü və çoxqatlı təzahürünü nümayiş etdirir. Bu kontekstdə bayram yalnız qeyd olunan hadisə deyil, həm də yaşanan təcrübə, bərpa olunan yaddaş və qurulan gələcəkdir. Bayramlar vasitəsilə itirilmiş məkanla əlaqə yenidən qurulur, kollektiv identiklik gücləndirilir və travmatik təcrübələr sosial çərçivədə mənalandırılır.

Aparılmış təhlil göstərir ki, bayram praktikaları (qonaqpərvərlik, paylaşma və barış) sosial münasibətlərin yalnız ifadəsi deyil, həm də onların aktiv şəkildə yenidən qurulması mexanizmi kimi çıxış edir. Bu praktikalar vasitəsilə qarşılıqlı etimad, sosial məsuliyyət və ədalət prinsiplərinə əsaslanan münasibətlər sistemi davamlı şəkildə reproduksiya olunur. Törnerin liminallıq və "communitas" anlayışları bu prosesi izah etməyə imkan verir: bayram zamanı fərdlər mövcud sosial strukturlardan müvəqqəti olaraq kənara çıxaraq yeni sosial bağlılıq formaları yaradırlar [28, s. 94-96].

Bu baxımdan bayram fenomenini "ritual barış və sosial bərpa mexanizmi" kimi nəzəri şəkildə çərçivələndirmək mümkündür. Təklif olunan bu yanaşma göstərir ki, bayramlar yalnız sosial həmrəyliyi gücləndirmir, həm də pozulmuş sosial əlaqələri bərpa edir və cəmiyyət daxilində yeni balans yaradır. Tədqiqat çərçivəsində bayram fenomeni eyni zamanda "bayram vasitəsilə sosial bərpa" kimi konseptuallaşdırılır. Bu yanaşma bayramların sosial və psixoloji funksiyalarını daha dərindən izah etməyə imkan verir və xüsusilə post-konflikt cəmiyyətlərin öyrənilməsi üçün yeni analitik perspektiv təqdim edir.

Jan Assmannın mədəni yaddaş nəzəriyyəsi prizmasından yanaşdıqda, bayramlar cəmiyyətin uzunmüddətli yaddaşını qoruyan və ötürən simvolik sistemlər kimi çıxış edir; bu prosesdə keçmiş təcrübələr, dəyərlər və sosial normalar yalnız xatırlanmır, həm də ritual praktikalar vasitəsilə yenidən aktuallaşdırılaraq gələcək nəsillərə ötürülür [3, s. 37].

Xüsusilə post-konflikt cəmiyyətlərdə bayram fenomeni daha dərin və çoxqatlı məna kəsb edərək sosial bərpa, kollektiv yaddaşın yenidən aktivləşdirilməsi və identikliyin rekonstruksiyası üçün mühüm vasitəyə çevrilir. Tədqiqat göstərir ki, bayramlar bu şəraitdə yalnız ənənənin qorunması ilə məhdudlaşmır, həm də "ritual sosial bərpa" və "ritual qayıdış" mexanizmləri kimi çıxış edərək cəmiyyətin travmatik təcrübələrdən sonra yenidən təşkilinə imkan yaradır.

Beləliklə, bayram fenomeni yalnız mədəni hadisə deyil, sosial münasibətlərin yenidən qurulduğu, kollektiv yaddaşın davamlılığının təmin olunduğu və cəmiyyətin özünü yenidən təşkil etdiyi kompleks sosial sistem kimi dəyərləndirilməlidir.

**Ədəbiyyat:**

1. Ahənçi P. Şuşa sakinlərinin kollektiv yaddaşında Novruz mərasimi narrativləri // Türk xalqlarının mərasim sistemində Novruzun yeri: Beynəlxalq elmi konfransın materialları (Bakı, 10-11 mart 2022-ci il). – Bakı, 2023. – S. 50–65.
2. Appadurai A. Modernity at large: cultural dimensions of globalization. – Minneapolis: University of Minnesota Press, 1996.
3. Assmann J. Cultural memory and early civilization: writing, remembrance, and political imagination. – Cambridge: Cambridge University Press, 2011.

4. Bauman Z. Liquid modernity. – Cambridge: Polity Press, 2000.
5. Beard M., North J., Price S. Religions of Rome. – Vol. 1. – Cambridge: Cambridge University Press, 1998.
6. Bell C. Ritual theory, ritual practice. – New York: Oxford University Press, 1992.
7. Bell C. Ritual: perspectives and dimensions. – New York: Oxford University Press, 1997.
8. Beltane Fire Society. About the Beltane Fire Festival [Elektron resurs]. – Edinburgh, 2024.
9. Boyce M. Zoroastrians: their religious beliefs and practices. – London: Routledge, 2001.
10. Castells M. The rise of the network society. – Oxford: Wiley-Blackwell, 2010.
11. Durkheim E. The elementary forms of religious life. – New York: Free Press, 1995.
12. Frazer J. G. The golden bough. – London: Macmillan, 1922.
13. Fuller C. J. The camphor flame: popular Hinduism and society in India. – Princeton: Princeton University Press, 2004.
14. Giddens A. Modernity and self-identity. – Stanford: Stanford University Press, 1991.
15. Halbwachs M. On collective memory. – Chicago: University of Chicago Press, 1992.
16. Hall S. Cultural identity and diaspora // Identity: community, culture, difference / ed. J. Rutherford. – London: Lawrence & Wishart, 1990. – S. 222–237.
17. Hutton R. The stations of the sun: a history of the ritual year in Britain. – Oxford: Oxford University Press, 1996.
18. Керимов Э., Аханчи П. Огнепоклонство в контексте зороастризма и индуизма (на примере Азербайджана, Индии и Ирана). – Баку, 2014. – 192 с.
19. Macrobius. Saturnalia / trans. R. A. Kaster. – Cambridge (MA): Harvard University Press, 2019.
20. Mauss M. The gift: the form and reason for exchange in archaic societies. – London: Routledge, 2002.
21. Nəbiyev A. Novruz bayramı: tarixi və ənənələri. – Bakı, 2009.
22. Qasımlı M. Azərbaycan folklorunda mərasim mədəniyyəti. – Bakı, 2012.
23. Quliyev H. Azərbaycan xalq mərasimləri və sosial funksiyaları. – Bakı, 2008.
24. Sahlins M. Stone age economics. – Chicago: Aldine, 1972.
25. Scott J. C. The moral economy of the peasant. – New Haven: Yale University Press, 1976.
26. Sorokin P. A., Merton R. K. Social time: a methodological and functional analysis // American Journal of Sociology. – 1937. – C. 42, № 5. – S. 615–629.
27. Thompson E. P. The moral economy of the English crowd in the eighteenth century // Past & Present. – 1971. – № 50. – S. 76–136.
28. Turner V. The ritual process: structure and anti-structure. – Chicago: Aldine, 1969.
29. World History Encyclopedia. Saturnalia: the jolliest of Roman festivals [Elektron resurs]. – 2024.
30. Xəlil A. Azərbaycan mərasim sistemi. – Bakı, 2012.
31. Yoloğlu G. Türk xalqlarının mərasimləri: Novruz və yaz bayramları. – Bakı: Elm və Təhsil, 2012.

**Qeyd:** Müəllif şəkillərin hazırlanmasında süni intellektdən istifadə etmişdir.

Mətbəənin direktoru – Fuad HÜSEYNOV
Texniki redaktor – Azər RƏSULOV
Texniki korrektor – Təranə RƏHİMOVA
Səhifələnmə – Günel ƏSƏDOVA
Çap – Oktay YUSİFOV
Cild – Gövhər NURULLAYEVA
– İlhamə MİKAYILOVA

*Kitab* ***"AFPoliqrAF"*** *mətbəəsində hazır diapozitivlərdən ofset üsulu ilə çap olunmuşdur.*

afpoliqraf@mail.ru
afpoliqraf@gmail.com
Tel.: +994 (12) 510 96 74
Mob.: +994 (50) 405 96 74

Yığılmağa verilmişdir: 07.04.2026
Çapa imzalanmışdır: 27.04.2026
Qarnitura: Alice, Times New Roman
Şərti çap vərəqi: 37,5
Formatı: 64x90 1/8
Tiraj: 300